Salam Dəyərli dost!

Mən Röya! Hazırda həyatımda bir ilk yaşayıb heç görmədiyim, tanımadığım birinə məktub yazıram. Bunu bir neçə dəfə edə bilərəm, amma tanımadığım o insanla görüşüb, danışıb, əlaqələri möhkəmlətmək kimi şansım ola bilər. Amma təəssüf ki, bu, indiki halda səninlə mənim aramda qeyri mümkün bir haldır. Və etiraf etməliyəm ki, bu, məni olduqca məyus edir.

Mən heç vaxt, virtualda belə, bir erməni ilə danışmamışam, bir erməni görməmişəm. Amma sizinlə görüşüb danışma şansı olan tanışlarım həmişə müsbət rəylər bildiriblər. Bu qədər yaxın olub da heç erməni görməmək nə qədər də ironik səslənir, elə deyil ? Dostlarım mənə tez tez utopiyada yaşayırsan deyə şikayət edirlər. Bəli mən xəyal qurmağı sevirəm. Hərkəsin sülh və əmin-amanlıq şəklində yaşadığı, müharibələrin, sərhədlərin, olmadığı, insan hüquqlarının tapdalanmadığı, uşaqların daima üzünün güldüyü, hərkəsin azad olduğu bir dünya xəyal etmişəm həmişə. Amma təkcə xəyal etməklə qalmayıb saydıqlarımın hamısına bütün qəlbimlə inanmışam da, inanmağa da davam edirəm. Bu saydıqlarım bəlkə heç vaxt olmayacaq amma buna inanan insanların sayı nə qədər çox olsa zorakılıqların, vəhşiliklərin, cahilliyin, nifrətin sayı bir o qədər də azalacağını bilirəm. Çünkü hər şey inancda başlayır, inancda bitir. Nəyə inanırıqsa o realdır. Buna görə də dostum səni sülhə və əlində olduğu qədər sülhü təbliğ etməyə çağırıram. Bunu sadəcə öz yaxınlarımızın, dostlarımızın, ailəmizin vətənimizin təhlükəsizliyi üçün yox, həm də bütün dünyanın rifahı üçün etməliyik.

Düzdür biz müharibəni görmüş, itkilər, ağrılar çəkmiş, əzablara düçar olmuş insanlara bütün bunları unutdura bilmərik. Unutmamalıyıq da. Unutmamalıyıqki bütün bunların bir daha yaşanmaması üçün çalışaq, əlimizdən gələn hər şeyi edək. Hər şey bizim öz əlimizdədir dost!

Səbrsizliklə məktubunu gözləyəcəm